

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 48 (23.935)

11 mart 2022-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğanın dəvəti ilə martın 10-da Türkiyəyə işgüzar səfərə gəlib.

Prezident İlham Əliyev martın 10-da Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğanla görüşüb.

Görüşdə Şuşa Bəyannaməsinin imzalanmasının, həmçinin Zəngəzur dəhlizinin açılmasının, onun region üçün yaratdığı perspektivlərin, bu xüsusda Qars-Naxçıvan dəmir yolu xəttinin çəkilməsinin əhəmiyyəti qeyd olunub. Söhbət zamanı 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda təsbit olunmuş bütün müddəaların Ermənistan tərəfindən icrasının vacibliyi qeyd edilib, Türkiyə və Ermənistan nümayəndə heyətlərinin təmasları mövzusunda müzakirə aparılıb.

Görüşdə Cənub Qaz Dəhlizinin uğurla fəaliyyət göstərdiyi qeyd olunub, bu dəhliz vasitəsilə qardaş ölkəyə və Türkiyə ərazisindən keçərək Avropaya qaz təchizatının artırılması imkanları müzakirə edilib, həmçinin İqdır-Naxçıvan qaz xəttinin çəkilməsi və bununla bağlı Azərbaycanın dövlət büdcəsində investisiyanın nəzərdə tutulduğu vurğulanıb.

Söhbət əsnasında iqtisadi-ticarət əlaqələrinin daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb. Sonda Azərbaycan-Türkiyə müttəfiqlik əlaqələrinin inkişafından bir daha məmnunluq ifadə olunub və Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Təyyib Ərdoğanı Azərbaycana səfərə dəvət edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri martın 10-da başa çatıb.

## Qədim Cümə məscidində əsaslı təmir-bərpa işləri davam etdirilir



Son illər muxtar respublikamızda tarixi-mədəni irsimizin, adət-ənənələrimizin, milli dəyərlərimizin qorunması və təbliğinə yönəldilən tədbirlər davamlı xarakter alıb. Belə tədbirlərin davamı kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Ordubad şəhərindəki qədim Cümə məscidinin bərpa edilməsi hər kəsi sevindirir. Bu qədim abidənin təmir-bərpası zamanı muxtar respublika rəhbəri bir neçə dəfə inşaat meydançasında olmuş, dəyərli tövsiyələrini vermişdir.

Şəhərin mərkəzi meydanında, Bərəkə dağının sinəsində ucalan qədim Cümə məscidi öz əzəməti ilə diqqəti cəlb edir. Həmin bina nadir memarlıq abidəsi kimi hər zaman rayona gələn qonaqları heyrətə salıb. Memarlıq görkəmi ilə diqqəti cəlb edən bu tikili XVII-XVIII əsrlərə aid abidələrin başlıca cəhətlərini özündə birləşdirir. Məscidin giriş qapısındakı lövhədə 1604-cü ildə I Şah Abbasın beş sətirlik fərmanının mətni yazılıb.

Bu ibadət ocağının memarlıq quruluşu saxlanılmaqla burada dindarlar üçün lazımi şərait yaradılacaq. Sahəsi 890 kvadratmetr olan məsciddə axund otağı, qadın və kişi ibadət zalları və digər otaqlar yerləşəcək. Məscidin həyətində də geniş abadlıq işləri aparılacaq, müasir istilik, işıqlandırma və suvarma sistemi yaradılacaq.

Onu da qeyd edək ki, məsciddə fasad divarlarının və binadaxili divarların yenilənməsi, məscidin dam örtüyünün yenidən qurulması, ətrafdakı yöndəmsiz binaların təmir-bərpa edilməsi başa çatdırılıb.

**Abbas SEYİD**

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən əmək pensiyaçılarına, o cümlədən sığortaolunanlara göstərilən xidmətlərin operativ şəkildə həyata keçirilməsi məqsədilə mütəmadi olaraq tədbirlər görülür. Bu tədbirlərin davamı kimi fond fevral ayı ərzində əmək pensiyalarının, sığorta prinsipi ilə pensiya alanlara 2022-ci ilin birinci rübü üzrə verilən maddi yardımın və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırıb, 18 milyon 188 min manat vəsait pensiya və müavinətlərin ödənilməsinə xərclənib.*

## Əhalinin sosial rifah halı yaxşılaşdırılır

Hesabat dövründə ölkə başçısının müvafiq Sərəncamı ilə əmək pensiyalarının sığorta hissəsi cari ilin yanvar ayının 1-dən etibarən ortaaylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 3,4 faiz indeksləşdirilərək artırılıb. Sərəncamın icrası nəticəsində muxtar respublika üzrə 40 min pensiyaçının pensiyasında artım qeydə alınıb. Bundan əlavə, Sərəncama uyğun olaraq əmək pensiyaçılarına birinci rüb üzrə 50 manat məbləğində maddi yardımın ödənilməsi təmin edilib.

Ötən ay müvafiq qurum tərəfindən məcburi dövlət sosial sığortahaqqı üzrə 10 milyon 109 min 600 manat vəsait yığılaraq fondun xəzinə hesabına köçürülüb ki, bu da nəzərdə tutulan məbləğdən 9,6 faiz çoxdur. Pensiya və müavinətlərin ödənişinə ayrılan vəsaitin 55,6 faizi məcburi dövlət sosial sığortahaqqı şəklində muxtar respublikada yığılıb. Hesabat ayında 2 hüquqi və 214 fiziki şəxs məcburi dövlət sosial sığortaödəyicisi kimi uçota alınıb.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq pensiya hüququ yaranan 160 vətəndaşa əmək pensiyası təyin edilib. Bunlardan 120-si yaşa, 14-ü sağlamlıq imkanları məhdudluğa görə, 26-sı isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxan vətəndaşlar olub. Pensiya təyin olunan vətəndaşların 108-i kişi, 52-si isə qadındır. Bundan başqa, fərdi uçot sistemində işlər davam etdirilib və yeni əmək fəaliyyətinə başlayan 326 sığortaolunana şəxsi hesab açılıb.

Ötən ay deputatların, məhkəmə və hüquq-mühafizə orqanları əməkdaşlarının həyat və sağlamlığının dövlət icbari şəxsi sığortası sahəsində müvafiq işlər görülüb, sığortaedənlər tərəfindən 256 min 800 manat vəsait fondun xüsusi hesabına köçürülüb.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

## Kəngərli rayonunda 125 hektar sahədə şum qaldırılıb

Muxtar respublikamızda əhalinin əsas məşğuliyyəti kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlıdır. Buna görə də aqrar sahənin inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılır, torpaq mülkiyyətçiləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunurlar. Bu sahədə həyata keçirilən mühüm tədbirlərin nəticəsidir ki, son illərdə muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsal həcmi artır, daxili bazarın yerli məhsullarla təminatı diqqət mərkəzində saxlanılır.

Kəngərli rayonu da kənd təsərrüfatı məhsullarının yetişdirildiyi aqrar bölgələrdən biridir. Son illərdə burada suvarma suyuna olan ehtiyacın ödənilməsi məqsədilə yeni sistemlərin qurulması, nasos stansiyalarının işləkliyinin təmin olunması rayonda əkin sahələrinin artması ilə yanaşı, məhsul bolluğuna da şərait yaradıb. Artıq bölgədə yaz-tarla işlərinə başlanılıb, torpaq mülkiyyətçiləri böyük həvəslə sahələrə çıxıblar.

Kəngərli Rayon İcra Hakimiyyətindən verilən məlumata görə, bu günədək



125 hektar sahədə şum qaldırılıb. Yeni əkilmiş 82 hektar sahənin isə 47 hektarını arpa, 33 hektarını yonca, 2 hektarını isə istixana üsulu ilə əkilmiş bostan məhsulları təşkil edir.

Yaz əkinlərinin mütəşəkkil şəkildə keçirilməsi bu il də rayonda bol məhsulun olacağından xəbər verir.

**Xəbərlər şöbəsi**

*Muxtar respublikada əmlak və torpaq idarəçiliyinin müasir əsaslarla qurulması, mülkiyyət hüquqlarının qeydiyyatı zamanı operativliyin təmin edilməsi, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi fevral ayında da Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən diqqətdə saxlanılıb, xidmətin fəaliyyət sahələri üzrə işlərin icrası ardıcıl olaraq davam etdirilib.*

## Torpaqlardan istifadəyə və mülkiyyət hüquqlarının qeydiyyatına dövlət nəzarəti gücləndirilib

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair" Tədbirlər Planı və "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" Tədbirlər Planına uyğun olaraq Şahbuz rayonunun Daylaqlı, Babək rayonunun Kültəpə, Culfa rayonunun Əbrəqunus kəndlərində bələdiyyə sədrlərinin, ailə təsərrüfatı başçılarının, torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin iştirakı ilə maarifləndirici tədbirlər keçirilib.

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Şərur rayonunun Muğanlı, Həmzəli, Alışar, Şahbulaq və Siyaqut kəndlərinin ərazisində monitorinqlər başa çatdırılıb, müəyyən edilmiş qanun pozuntularının aradan qaldırılması üçün tədbirlər görülüb. Şərur rayonunun Axura, Gümüşlü, Aşağı Yaycı, Yuxarı Yaycı kəndlərinin və Kəngərli rayonunun Qıvraq qəsəbəsinin ərazisində monitorinqlər davam etdirilib.

Şərur rayonunun Tənənəm və Xanlıqlar kəndlərində torpaq mülkiyyətçiləri, istifadəçiləri, icarəçiləri ilə torpaqlardan təyinatına uyğun səmərəli istifadə olunması və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi barədə maarifləndirici görüşlər keçirilib. Rayonun Yuxarı Yaycı, Gümüşlü və Şahbulaq kəndlərinin həyətyanı torpaq sahələrinin yerquruluşu planları, Naxçıvan şəhəri və rayonlarda yaz mövsümündə yeni salınacaq və bərpa olunacaq yaşıllıq sahələrinin planları hazırlanaraq aidiyyəti üzrə təhvil verilib.

Ay ərzində 643 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb, 429 texniki sənəd hazırlanıb. Yeni yaranmış 23 daşınmaz əmlak obyektinə ünvan verilib, 76 torpaq sahəsinin planölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınıb. Səyyar xidmət vasitəsilə 8 yaşayış məntəqəsində vətəndaşların müraciətinə baxılıb, 127 fiziki və hüquqi şəxs elektron xidmətlərdən yararlanıb. Mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması və daşınmaz əmlakla bağlı digər əməliyyatların aparılması üçün vətəndaşlardan 1522 ərizə qəbul edilərək icra olunub. 12 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib, təsərrüfat fəaliyyəti ilə əlaqədar ailə təsərrüfatlarının icarəsinə verilmiş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınıb.

**Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti**

# “1001 Home” mağazası:
## keyfiyyətli məhsul, peşəkar xidmət, daim yenilənən biznes vərdişləri

***Təxminən, iki ay bundan əvvəl Naxçıvan şəhərində “1001 Home” mağazasının açılışı oldu. “Cahan” Alış-Veriş Mərkəzinin bazasında fəaliyyətə başlayan bu mağazada əvvəllər də olmuşdum, ancaq fərqli konsepsiya və özəllikləri ilə yenidən qapılarını müştərilərinin üzünə açan bu ticarət obyektində, sözün əsl mənasında, Naxçıvanda müasir mağazaçılıq elementlərinin tətbiq edildiyinin şahidi oldum. Elə təəssüratlarımı oxucularla bölüşmək istəyi də buradan başlandı və bu işdə “1001 Home” mağazasının müdiri Yusif Şirzadovla söhbətimiz, düşünürəm ki, maraqlı və səmimi alındı. Hər halda bu qərarı oxucuların öhdəsinə buraxıb söhbətə keçid almaq istərdim:***




*– Yusif müəllim, ilk sualımız belə olacaq: “1001 Home” mağazası nə satır?*

– Mağazamıza xoş gəlmisiniz. “1001 Home” mağazası, əsasən, ev və ev təsərrüfatında istifadə olunan məhsulları satır. Mağazada müxtəlif santexnika məhsullarından tutmuş asma tavanlar, çilçıraqlar, işıqlandırma sistemləri, divar üzlükləri, istilik sistemləri, mebel məmulatları və məişət əşyalarınadək bir çox məhsullar mövcuddur. Hazırda burada 10 000 çeşiddən çox məhsul satılmaqdadır.

*– Yəqin, mağazanın adındakı “1001” rəqəmi burada çeşid müxtəlifliyinə işarədir...*

– Bəli, elədir.

*– Mən mağazanın interyeri haqqında soruşmaq istəyirəm. Hiss olunur ki, burada əvvəlkindən fərqli olaraq bir sıra yeniliklər tətbiq edilib.*

– Doğrudur, mağazanın interyerində ilk diqqəti cəlb edən buradakı məhsulların istehlakçılara rahat şəkildə təqdim olunmasına əsaslanır. Satış bölməsi 2000 kvadratmetr ərazini təşkil edir, birmərtəbəlidir, yalnız mağaza idarəçiliyində çalışanlar üçün ikinci mərtəbə nəzərdə tutulub və burada, əsasən, ofislər yerləşir. Mağazanın girişində əvvəllər olduğu kimi giriş və çıxış qapıları ilə üzbəüz 2 satış kassası yerləşir. Mağazaya daxil olduqdan sonra sağ tərəfdə müxtəlif santexnika, divar kağızları, kafel-metlax, hamam aksessuarları yerləşir. Sol hissədə isə ev təsərrüfatında istifadə olunan təsərrüfat avadanlıqları və onların ehtiyat hissələri, elektrik təsərrüfatına aid məhsullar, boya, mebel kimi məhsullar satılır.

*– Məhsulların düzülüşü həm interyer baxımından, həm də hədəf kütləyə xitab baxımından çox böyük amildir, hətta deyərdim, bu amil mağazaçılıqda ilk sırada gəlir. “1001 Home” bu rahatlığı alıcılarına necə təqdim edir?*

– Bir mağaza idarəçisi üçün ən vacib məsələyə toxundunuz. Məhsulların yer seçimi və düzgün şəkildə istehlakçıya təqdimatı bizim üçün başlıca məsələlərdəndir. Əvvəllər mağazamızda elə məhsullar var idi ki, onları doğru şəkildə alıcılara təqdim edə bilmirdik. Məsələn, divar kağızları. Əvvəlki rəflərdəki düzülüş məhsulun digər çeşidlərinin sərgilənməsinin önünü kəsirdi və müştəri onu tam görə bilmirdi. Ancaq indi yeni ziqzaqşəkilli rəflər burada satılan bütün divar kağızlarının görünməsini asanlaşdırır və müştəridə də ələvə sual yaratmır. Və yaxud kafel-metlax nümunələri. İndi onların sərgiləndiyi rəflər həm məhsula əllə toxunmağa, həm də digər çeşid və rənglərinin alıcıya aydın təqdim olunmasına imkan verir. Asma tavanları da buraya əlavə edə bilərik. Digər bir misal göstərə bilərəm: mənzillər üçün satılan qapılar. Əvvəllər qapılar, sadəcə, mağazanın bir hissəsində sərgilənirdisə, bu gün həmin qapılar ayrıca bir bölmədə rəng seçimi olaraq alıcılara təqdim edilir. Belə ki, müştəri indi ayaqüstü divar çərçivələrə salınmış qapı nümunələrini eynilə evdə olduğu kimi, açıb-bağlamaqla həm də digər üzünü rahatlıqla görə bilir. Mağazamızda bir neçə markada və çeşiddə boyalarımız var. Gördüyünüz kimi, bu boyalar, onun istifadə edilməsində gərəkli olan vasitələrlə birgə sərgilənir, eyni zamanda müştərinin kataloqdan seçdiyi rəng tonu burada qoyulmuş xüsusi avadanlıq vasitəsilə qarışdırılaraq ona təqdim olunur.

*– Yusif müəllim, mağazada diqqətimi mətbəx mebelləri çəkdi. İlk baxışdan bu mebellərdə funksionallıq və sadəliyin harmoniyasını görürük, hətta müəyyən mənada klassik retro tərzindən istifadə də yaddan çıxmayıb. Burada bir haşiyə çıxaraq deyim ki, İtaliyanın Milan şəhərində hər il keçirilən ənənəvi mebel sərgiləri, adətən, növbəti illər üçün bazara yeni dizayn meyillərinin istiqamətini təyin edir. 2022-ci ilin mətbəx mebeli trendlərində rəng seçimi “qışqıran”, “bağıran”*






*rənglər deyil, daha çox “passiv” tonlara üstünlüyü nəzərdə tutur. Və bu gün həmin rəngləri burada görürük…*

– Çox sağ olun, yanaşmanıza görə, təbii ki, bunları eşitmək bizim üçün çox xoşdur. “1001 Home” mağazası olaraq müştərilərimizə ən keyfiyyətli və müasir dəbə uyğun məhsulları təqdim etməyi qarşımıza məqsəd qoymuşuq. Sizin qeyd etdiyiniz mətbəx mebelləri yerli istehsaldır və alıcılarımıza sifariş əsasında istənilən ölçüdə bu cür mebellərdən təqdim edə bilirik. Yeri gəlmişkən bu gün mağazamızda satılan məhsulların 20 faizi “Cahan Holdinq” Kommersiya Şirkətləri İttifaqına məxsusdur. Yaxın gələcəkdə yerli məhsullarımızın çeşidləri də artacaq. Həmçinin mağazada ölkəmizdə, eləcə də muxtar respublikamızda istehsal olunan məhsullar da təqdim edilir.

*– Mağazada satışa yönəlik hansı addımlar atılır və yaxud satış strategiyası hansı əsaslar üzərində qurulub?*

– Təbii ki, hər bir ticarət obyektinin, mağazanın özünə seçdiyi bir satış istiqaməti var. “Cahan” ailəsi olaraq bizim prosesə ümumi baxışımız müştərilərə dəyər üzərində qurulub. Yəni müasir biznesin də əsas təməllərindən biri odur ki, o dəyəri verməsən, almayacaqsan. Müştəriyə necə dəyər vermək olar? Yalnız keyfiyyətli xidmət və məhsulla. Bir misal çəkmək istərdim. Bizim mağazada içəri daxil olarkən sağ tərəfdə bir məlumatlandırma nöqtəsi var. Orada daim bir işçimiz oturur. Onun vəzifəsi mağazaya daxil olan, ancaq alacağı məhsulların hansı tərəfdə yerləşdiyini bilməyənləri lazımi istiqamətə yönləndirmək, telefon vasitəsilə zəng vurub məhsul haqqında soruşanlara cavab vermək, sifarişlər qəbul etmək və sairdir. Bildiyiniz kimi, belə ticarət obyektlərində bölmələr arasında da satış komandasından işçilər olur. Ancaq biz çalışırıq ki, mağazada alıcıların hər bir istəyi ilə maksimum maraqlana bilək.

*– Zənnimcə, bu ondan irəli gəlir ki, müştəri ərzaq mağazalarından fərqli olaraq bu kimi məhsulların satıldığı mağazalarda daha çox vaxt keçirməli olur. Çünki gündəlik ərzaq məhsullarından fərqli olaraq burada satılan mallar haqqında əlavə məlumat almağa ehtiyac yaranır ki, bu da vaxtın uzanması deməkdir.*

– Tamamilə doğrudur. Satışa yönəlik sualınıza cavab olaraq bunu da deyim ki, adətən, bu kimi mağazalarda dövri olaraq satış kampaniyaları təşkil edilir. Bu bizdə də keçirilir, eyni zamanda mağazamıza daxil olarkən alıcıların ilk qarşılaşdığı satış sahəsi qiymətlərində endirim olanlardır. Burada müxtəlif mallar var və əvvəl satıldığı qiymətlərdən aşağı satılmaqdadır. Bundan əlavə, “1001 Home” mağazasında alıcılar “BirKart” və digər kredit imkanlarından da yararlana bilərlər.

*– Yusif müəllim, yaxşı satış məhsulun keyfiyyəti ilə yanaşı, həm də yaxşı formalaşmış satış komandasından asılıdır. Ümumiyyətlə, “1001 Home” komandasının satış və xidmət bacarıqlarının təkmilləşdirilməsi işi necə təşkil olunur?*

– Təbii ki, komanda üzvlərinin satış hazırlığı bizim üçün öndə gələn məsələlərdəndir. Təsadüfi deyil ki, bizim mağazanın kollektivi də mütəmadi olaraq “Cahan Holdinq” Kommersiya Şirkətləri İttifaqı rəhbərliyinin təşkilatçılığı ilə keçirilən satış təlimlərinin iştirakçısı olurlar. Təlimlərdə ölkəmizin bu sahədə tanınmış mütəxəssisləri iştirak edirlər.

*– Düşünürük ki, təcrübənin bölüşmək müasir biznes vərdişlərini inkişaf etdirməyin ən yaxşı yoludur.*

– Düzgün qeyd etdiniz, müasir biznesi “başa düşməyin” ən yaxşı yolu baş verən yenilikləri öyrənmək və tətbiq etməkdir. İnanıram ki, “1001 Home”un potensialı yaxın gələcəkdə bu nümunələrin ölkə bazarında tətbiqinə də imkan verəcək.

*– Sağ olun, sizə gələcək fəaliyyətinizdə uğurlar arzu edirik.*

**Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***



# Burada istehsal edilən məhsullar müştəri məmnuniyyəti qazanır

***Uşaq, böyük elə bir insan yoxdur ki, onun, az da olsa, şirniyyatdan xoşu gəlməsin. Mütəxəssislər bildirirlər ki, şirniyyat məhsullarının tərkibində olan şəkər orqanizm üçün faydalıdır. Şəkər orqanizmə lazım olan qidalardandır. Orqanizm enerjisiz yaşaya bilməz. Şəkər, qlükoza enerji ehtiyatını qarşılayan vasitələrdən biridir. Şəkərin verdiyi enerji həm beyin, həm də, ümumiyyətlə, orqanizm üçün vacib məhsuldur.***

Ölkəmizdə şirniyyat sənayesinin inkişaf etməsi, yeni, müasir standartlara cavab verən müəssisələrin fəaliyyətə başlaması bu sahəyə öz töhfəsini verir. Muxtar respublikamızda fəaliyyət göstərən “Ləzzət Biskvit və Şokolad Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyəti də öz məhsulları ilə alıcıların rəğbətini qazanıb.

Məlumat üçün bildirək ki, cəmiyyətə Naxçıvan şəhərində sənaye şəhərciyi üçün ayrılmış ərazidə ayrı-ayrı iş otaqlarından ibarət inzibati bina, istehsal sahəsi, yeməkxana və digər yardımçı binalar tikilib istifadəyə verilib. 2011-ci ildən vafli istehsalı ilə fəaliyyətə başlayan müəssisədə 2013-cü ildə peçenye istehsalı sahəsi də yaradılıb. Burada istehsal olunan məhsulların xammal ehtiyatı, əsasən, daxili imkanlar hesabına ödənilir. Bu da aqrar sektorun inkişafına, eləcə də torpaq mülkiyyətçilərinin alıcı problemi ilə üzləşməməsinə öz müsbət təsirini göstərir.

Fabrikdə sanitar-gigiyenik və texniki-təhlükəsizlik qaydalarına ciddi əməl olunur. Burada fəaliyyət göstərən istehsal sahələrində Türkiyənin müxtəlif firmalarının istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Müəssisədə şəkər dəyirmanı da fəaliyyət göstərir. Burada şəkər üyüdülür, kirşan halına salınır. Sonra mikser avadanlıqlarda reseptə uyğun olaraq müxtəlif qatqı maddələri ilə qarışdırılır, hazır kremin saxlanması üçün nəzərdə tutulan ayrı-ayrı çənlərə yığılır. Vafli və peçenye istehsalı üçün xəmir hazırlanması da avtomatik olaraq yerinə yetirilir və istehsal xəttinə ötürülür.



Qəliblərə tökülən xəmir müəyyən temperaturda bişirilir, ayrı-ayrı mərhələlərdə kremlər əlavə olunmaqla tunel soyuduculardan keçdikdən sonra müəyyən ölçülərdə kəsilir. Bazar iqtisadiyyatının tələblərinə uyğun yüksəkkeyfiyyətli məhsul istehsalı ilə yanaşı, məhsulun quruluşunun, dizaynının yüksək səviyyədə olması və ekoloji cəhətdən təmiz şəraitdə qablaşdırılması da diqqət mərkəzində saxlanılır. Gündəlik istehsal gücü 22 ton vafli olan müəssisədə vanilli, çiyələkli, bananlı, kakaolu, südlü və digər tərkibdə olmaqla, müxtəlif çeşiddə vafli istehsal edilir. 5 kiloqramadək nəfis tərtibatla bəzədilmiş taralarda qablaşdırılan peçenyelər də müştəri məmnunluğu qazanıb. Hazır məhsulun üzərində istehsal tarixi, saxlanma şəraiti və istifadə müddəti göstərilir ki, bu da qida məhsulları istehsalında mühüm amildir. Həmçinin müəssisədə Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlarla təmin olunmuş laboratoriya fəaliyyət göstərir. Burada xammal və hazır məhsulların keyfiyyətinə ciddi nəzarət olunur. Hazır məhsullar müəssisənin balansında olan maşınlarla Naxçıvan şəhərində və ayrı-ayrı yaşayış məntəqələrində fəaliyyət göstərən ticarət obyektlərinə paylanılır.

Məlumat üçün onu da deyək ki, Naxçıvan şəhərində biznes-forumların, işgüzar görüş və konfransların keçirilməsini, həmçinin yerli məhsulların tanıdılması və satışının təşkilini təmin etmək məqsədilə yaradılmış Biznes Mərkəzin xidmətlərindən adıçəkilən müəssisə də səmərəli istifadə edir. Bunun bəhrəsidir ki, bir vaxtlar başqa ölkələrdən peçenye və vafli idxal edən Naxçıvan indi “Nati” tanıtım nişanı ilə belə şirniyyat məhsullarını nəinki ölkəmizin digər regionlarında satışa çıxarır, həm də İran İslam Respublikasına və Gürcüstana ixrac edir.








Rusiyanın paytaxtı Moskva şəhərində keçirilən “Prodexpo - 2019” beynəlxalq sərgisində Ləzzət Biskvit və Şokolad Fabrikinin “Nati” markası adı altında istehsal etdiyi məhsullar böyük maraqla qarşılanıb. “Nati” məhsulu olan “Lay-lay” vaflisi dünyanın 69 ölkəsindən 2500 məhsul arasında “Ən yaxşı məhsul-2019” nominasiyası üzrə qızıl medala layiq görülüb. “Prodexpo” sərgisi Moskva şəhərində 1994-cü ildən etibarən keçirilir. “Prodexpo” Rusiya və Şərqi Avropada keçirilən ən nüfuzlu qida sənayesi tədbirlərindən biridir. Ekspo-mərkəzdə keçirilən sərgiyə qatılan ziyarətçilər müxtəlif ölkələrdən minlərlə məhsulun dadına baxmaq, yeni ərzaqlarla tanış olmaq və yeni biznes əlaqələri qurmaq imkanına sahib olurlar.

*Bəli, bu gün muxtar respublikamızda sahibkarların hərtərəfli fəaliyyətinə şərait yaradılır, yeni istehsal və xidmət sahələrinin sayı artır. Sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsi məqsədilə dövlət maliyyə dəstəyi göstərilir, idxaləvəzləyici və ixracyönümlü məhsul istehsalına üstünlük verilir. Bu da, təbii ki, özəl sektorun ümumi daxili məhsuldakı payının ilbəil artması ilə müşahidə olunur. Sahibkarlığın inkişafı üçün yaradılmış əlverişli şəraitin nəticəsidir ki, bu gün muxtar respublikada 400-ə yaxın növdə məhsul istehsal edilir, 300 növdən çox məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir.*

**Ramiyyə ƏKBƏROVA**

*2022-ci ilin “Şuşa ili” elan olunması haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 5 yanvar tarixli Sərəncamına əsasən mədəniyyətimizin paytaxtı Şuşa şəhərinin bu il 270 illiyi təntənəli şəkildə qeyd olunacaq. Xalqımız üçün bu sevincli ildə ümummilli lider Heydər Əliyevin şanlı Vətən müharibəsindəki Tarixi Zəfər nəticəsində vüsalına qovuşduğumuz Şuşa haqqında dediklərini xatırlamaq yerinə düşər:* ***“Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar nöqtəsidir, Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir, Şuşa hamı üçün əzizdir. Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur!”***

**2022-ci il “Şuşa ili”dir**

# Şuşa – Qarabağın döyünən ürəyi



Qarabağ xanlığının əsası 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulmuşdur. Tarixi mənbələrə görə, Qarabağ xanı Pənahəli xan aramsız hücumlardan qorunmaq üçün əvvəlcə Bayat və Şahbulaq qalalarını tikdirsə də, bu qalaların heç biri xanlığı fasiləsiz müharibələrdən qoruya bilməmişdir. Gələn təhlükəli xəbərlər və Azərbaycanın özündə cərəyan edən siyasi hadisələr və qanlı feodal vuruşmaları göstərdi ki, Şahbulaq qalası o qədər qüvvətli sığınacaq deyil, gec-tez nisbətən qüvvətli düşmənin qurbanı ola bilər. Buna görə də dəniz səviyyəsindən 1300-1600 metr hündürlükdə yerləşən və üç tərəfdən sıldırım qayalarla və dağ yaylası ilə əhatə olunan ərazidə Pənahəli xan yeni bir şəhər – Şuşa şəhərini saldırdı və bu şəhəri xanlığın iqamətgahına çevirdi. Şuşa-Pənahabad şəhərinin siması ölkəmizin Bərdə, Beyləqan, Bakı, Gəncə, Şəki və Şamaxı kimi şəhərlərinin memarlıq üslublarını özündə əks etdirmişdir.

XVIII əsrin ikinci yarısında Qarabağda memarlıq və şəhərsalma, dekorativ-tətbiqi sənət sahələri inkişaf etməyə başlamış, epiqrafik abidələr çoxalmışdır. Bayat, Şahbulaq və Şuşa-Pənahabad qalalarında bazar, karvansaray, məscid, hamam, Ağdamda imarətlər, Pənah xana aid türbələr inşa edilmişdir. Şuşada yaşayış evlərinin, ictimai tikililərin interyerində divar naxışlarının gözəl və tipik nümunələri yaradılmışdır. Qarabağdan arxeoloji qazıntılar zamanı müxtəlif ölkələrin pulları, həmçinin Bərdədə və Şuşada kəsilmiş gümüş pullar aşkar edilmişdir. Qarabağ bölgəsi XIX əsrdə həm də Azərbaycanın xalçaçılıq mərkəzlərindən biri olmuşdur. Rəng çalarları və naxışlarının orijinallığı ilə seçilən, bədii və texnoloji xüsusiyyətlərinə görə üstün olan Qarabağ xalça növünün bu gün də dünya şöhrətli olması həmin sənət ənənəsinin öz təsirini saxlaması ilə bağlıdır. Qarabağda toxunmuş süjetli kompozisiyalı xovsuz xalçalar Azərbaycan xalçaçılığının ən gözəl nümunələrindəndir. Qarabağ xalçaları öz şöhrətini günümüzədək saxlamışdır. Qarabağ qrupuna daxil olan Şuşa, Cəbrayıl, Bərdə və Ağcabədi xalçaları adları və naxışları ilə seçilir.

Qarabağ regionunda orta əsrlər və yeni dövrə aid çoxlu sayda maddi mədəniyyət abidələri qeydə alınmışdır. Bu abidələrdən Şuşa şəhərində səkkizbucaqlı türbə, Xurşidbanu Natəvanın evi, Mamayı məscidi, Məşədi Şükür Mirsiyaboğlunun məscidli karvansarayı, Culfalar məscidi, Saatlı məscidi, Yuxarı Gövhərağa məscidi, Aşağı Gövhərağa məscidi (XIX əsr), Xanevi, gimnaziya binası, Laçın ərazisində Qarasaqqal türbəsi, Cicimli kəndindəki türbələr tariximizin qızıl səhifələrindəndir.

Şuşa bənzərsiz memarlıq abidələri ilə zəngin olmaqla yanaşı, milli mədəniyyətimizin dahiləri olan böyük şəxsiyyətlərin, görkəmli ictimai-siyasi və dövlət xadimlərinin, alimlərin Vətənidir. Şuşa Üzeyir Hacıbəyov, Xan Şuşinski, Bülbül, Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Firudin bəy Köçərli, Haşım bəy Vəzirov, Səfərəli bəy Vəlibəyov, Əhmədbəy Ağayev, Həmidə xanım Cavanşir, Süleyman Sani Axundov, Yusif Vəzir Çəmənzəminli kimi görkəmli şəxsiyyətlər yetişdirmişdir. Bir sözlə, Şuşa şəhəri Azərbaycan təhsilinin, musiqisinin beşiyi, həmçinin saz-söz ocaqlarından biri olmuşdur. Əbəs yerə Şuşa şəhəri Rusiya və dünya ictimaiyyəti tərəfindən “Şərqin konservatoriyası” adlandırılmamışdır.

Prezident cənab İlham Əliyevin 2022-ci ili “Şuşa ili” elan etməsi möhtəşəm hadisəyə çevrildi və ölkənin şanlı tarixinin qızıl salnaməsinə yazıldı. Bu il təntənəli tədbirlərlə – festivallar, konsertlər, müsabiqələr, sərgilər, yaradıcılıq layihələri, poeziya gecələri, yubileylərlə yadda qalacaq, qədim mədəniyyətimizin və incəsənətimizin bütün palitrası təqdim olunacaq. Bu gün Şuşada şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin bərpası, Üzeyir Hacıbəyovun, Bülbülün və Xurşidbanu Natəvanın büstlərinin qoyulması, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

*Fəxrlə deyə bilərik ki, Şuşa qısa zaman kəsiyində öz əzəmətini, şöhrətini, milli-mənəvi dəyərlərini özünə qaytaracaq, bütün dünya bu şəhərdə baş verən möhtəşəm hadisələri böyük maraqla, həvəslə izləyəcək və Şuşanın Qarabağın döyünən ürəyi olduğunu görəcəklər.*

**Ulduz EYVAZOVA**
***Naxçıvan Qarnizonu tam orta məktəbin tarix müəllimi***

## Operativ vergi nəzarəti tədbirləri davam etdirilir



Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli qurumları tərəfindən fevral ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib, 4 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub. Operativ vergi nəzarəti tədbirləri zamanı həmin vergiödəyicilərində “Fərqlənmə nişanı” olmadan avtomobil nəqliyyatı ilə sərnişindaşıma ilə məşğulolma faktları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb. Həmçinin vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 2 vergiödəyicisində xronometraj metodu ilə müşahidə aparılıb və müşahidəyədək olan dövriyyə ilə müqayisədə artım qeydə alınıb. Nəticədə, qanunvericiliyə uyğun olaraq müəyyən olunmuş əlavə vergi məbləğinin büdcəyə ödənilməsi təmin edilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Musiqi təhsili müəssisələrinə işə qəbulun müsahibə mərhələsi keçirilib

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında 2019-cu il 8 may tarixli Qərarına uyğun olaraq martın10-da müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu müsabiqəsinin müsahibə mərhələsi keçirilib.

Müsahibənin keçirilməsi üçün Dövlət İmtahan Mərkəzindən 1, Mədəniyyət Nazirliyindən 1, müstəqil ekspert qismində 3 nəfər olmaqla, 5 üzvdən ibarət müsahibə komissiyası yaradılıb. Müsahibə mərhələsində müəllimə verilən tapşırıqların yerinə yetirilməsi üçün 30 dəqiqə vaxt ayrılır və müəllimin praktik hazırlığı, peşəkarlıq və ifaçılıq qabiliyyəti yoxlanılır.

Naxçıvan Muxtar Respublikasında dövlət musiqi təhsili müəssisələrinin ixtisaslı kadrlarla komplektləşdirilməsi və tədrisin keyfiyyətinin artırılması məqsədilə keçirilən müsabiqənin müsahibə mərhələsində komissiya müəllimlərin ixtisas bacarığını müvafiq meyarlar üzrə 5 ballıq sistem əsasında qiymətləndirir. Müsahibədə 12 və ya daha çox bal toplamış müəllim bu mərhələdən keçmiş sayılır. Müsahibənin yekun nəticələri “Müəllimin qiymətləndirilməsinə dair yekun protokol”da öz əksini tapır.



Qeyd edək ki, 31 yanvar tarixdə keçirilən müsabiqənin test mərhələsində 127 vakant vəzifənin tutulması üçün 102 namizəd qeydiyyatdan keçib, onlardan 31 namizəd müvafiq keçid balını toplayıb. Ayrı-ayrı vəzifələr üzrə ən çox müraciət fortepiano, qarmon və konsertmeyster, fortepiano ixtisasları üzrə qeydə alınıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## İlkin səhiyyə xidməti işçiləri üçün vərəmlə mübarizəyə dair təlim





*Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi və Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublika Xəstəxanasında ilkin səhiyyə xidməti işçiləri üçün “Vərəmin aşkarlanması, nəzarətli müalicə və profilaktikasında ilkin səhiyyə xidmətinin rolu” mövzusunda əyani treninq keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva vərəmlə mübarizə sahəsində muxtar respublikada görülən əhəmiyyətli işlərdən və bu istiqamətdə ilkin səhiyyə xidmətinin rolundan danışıb.

Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun Konsultativ poliklinika şöbəsinin həkimi, Vərəmlə mübarizə üzrə Milli Proqramın müalicə üzrə kordinatoru Aysel Aslanova vərəm xəstəliyi, onun aşkarlanması və təsnifatı barədə məlumat verərək ölkədə həyata keçirilən Milli Vərəm Proqramının məqsəd və vəzifələrindən, ilkin səhiyyə xidmətinin vərəmlə mübarizədəki vacib rolundan danışıb. Qeyd edilib ki, dövlətimiz tərəfindən həyata keçirilən sosial-iqtisadi islahatlar ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafını təmin etməklə əhalinin sosial rifah halı yaxşılaşıb. Bunlarla yanaşı, səhiyyə sistemində aparılan köklü islahatlar da vərəm xəstəliyinin yayılmasının qarşısını almaqda əhəmiyyətli rol oynamaqdadır. Xüsusilə də əvvəllər vərəmə ilkin yoluxma hallarının təhlilinə görə xəstələr arasında uşaqların sayında ilbəil artım müşahidə edilsə də, sonrakı illərdə vərəmə yoluxan uşaqların sayı azalmağa başlayıb. Bu da orta təhsil müəssisələrində aparılan profilaktik tibbi tədbirlər, peyvəndləmə və sair ilə əlaqədardır.

Milli Referens Laboratoriyasının müdiri, Vərəmlə mübarizə üzrə Milli Proqramın laborator diaqnostika üzrə kordinatoru Mehriban Seyfəddinova vərəmin laborator diaqnostikası, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun Konsultativ poliklinika şöbəsinin həkimi, Vərəmlə mübarizə üzrə Milli Proqramın müalicə üzrə kordinatoru Aysel Aslanova dərmanlara davamlı vərəmin kimyəvi terapiyası və monitorinqi, uşaqlarda vərəmin xüsusiyyətləri, diaqnostikası, müalicəsi və profilaktikası mövzularında təlim keçiblər.

Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun Sığortanın təşkili və innovasiya şöbəsinin müdiri Vəfa Şahtaxtinskaya “Vərəm əleyhinə dərmanların əlavə təsirləri”, DOT-kabinənin təchizatı, kabinədə çalışan tibb heyətinin işi və vəzifəsi” mövzularında çıxış edib. Bildirib ki, respublikamızda səhiyyəyə olan diqqət və qayğı vərəmlə mübarizə xidmətinin gücləndirilməsində öz əksini tapır. Dövlət tərəfindən qəbul olunmuş Vərəmlə Mübarizə proqramları vərəm əleyhinə müəssisələrin maddi-texniki bazasının gücləndirilməsini, vərəmin müayinə, diaqnostika, müalicə və profilaktikası üzrə yeni müasir üsulların tətbiqini təmin edir.

Tədbir “Müəssisələrdə vərəm əleyhinə infeksion nəzarət qaydaları”nın təlimi ilə başa çatıb, post test aparılıb.

İkigünlük regional əyani treninq bu gün öz işini ftiziatrlar üçün davam etdirəcək.

Tədbirin sonunda bütün iştirakçılara sertifikatlar veriləcək və vərəmlə mübarizədə ilkin səhiyyə xidməti müəssisələrinin fəaliyyətinə rəhbərlik haqqında metodik vəsait paylanılacaq.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Dövlət Universitetində Milli Teatr Günü qeyd olunub

*Ali təhsil ocağının İncəsənət fakültəsində milli teatrın yaradılması münasibətilə tədbir keçirilib.*

Teatr və mədəniyyətşünaslıq kafedrasının müdiri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya üzrə fəlsəfə doktoru Gülxarə Əhmədova çıxışı zamanı qeyd edib ki, Milli Teatr Günü hər il universitetin Teatr və mədəniyyətşünaslıq kafedrasında bütün müəllim və tələbə-aktyor heyəti ilə birgə qeyd edilir. Bildirilib ki, ali təhsil ocağının 20 ildən artıqdır ki, fəaliyyət göstərən Tələbə Teatr Studiyası mədəni həyatın tərkib hissəsinə, çoxminli kollektivin mənəvi-estetik ehtiyaclarının ödənilməsi işinə xidmət edən mədəniyyət ocağına çevrilib. Studiyanın hazırladığı tamaşalar universitetin müəllim və tələbə heyətinin rəğbətini qazanmaqla bərabər, həmçinin muxtar respublikanın mədəni həyatında, respublikamızdan kənarda da uğurlar əldə edib.



Sonra Xalq yazıçısı Kamal Abdullanın “Bir, iki – bizimki!” pyesi əsasında hazırlanan, Aktyor sənəti üzrə II kurs tələbəsi Xəlil Hüseynovun və Aktyor ifaçılığının tarixi və nəzəriyyəsi üzrə II kurs magistrant Vəfa Qurbanzadənin iştirakı ilə eyniadlı tamaşa təqdim olunub.

Tamaşadan sonra universitetin rektoru, dosent Elbrus İsayev Aktyor sənəti ixtisasının müəllim və tələbələri ilə görüşüb. Qeyd edilib ki, muxtar respublikamızda teatr və incəsənət sahələri üzrə ixtisaslı kadrların hazırlanması işinə xüsusi əhəmiyyət verilir. 2011-ci ildə ali təhsil ocağında Teatr və mədəniyyətşünaslıq kafedrasının nəzdində Aktyor sənəti ixtisasının fəaliyyətə başlaması ixtisaslı aktyor kadrlara olan tələbatın ödənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Vurğulanıb ki, artıq bir çox tələbə müxtəlif teatrlarda əmək fəaliyyətinə başlayıb ki, bu da çox sevindirici haldır. Rektor Gülxarə Əhmədovanın teatr sahəsindəki fəaliyyətini, müəllimin universitetin bu sahədə inkişafında xüsusi rolu olduğunu qeyd edərək müəllim və tələbələrə diplom, kitab və pul mükafatı, təşəkkürnamə təqdim edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Sosial şəbəkələr:

## *onlardan düzgün faydalanmalı, aydın məqsədlər üçün istifadə etməliyik*

***Son illərdə həyatımızda texnoloji inkişaf elə sürətlə davam edir ki, keçmişdə bunu yalnız sənaye və səhiyyə kimi sahələrdə görürdük. Bu gün isə həmin proses həyatımızın ayrılmaz hissəsinə çevrilib. Məişətdə hər gün istifadə etdiyimiz elektrikli ev alətləri, kompüterlər, mobil telefonlar həyatımızı çox asanlaşdırır. Belə düşünsək, bütün yaş qrupları, kişilər və qadınlar həyatlarını asanlaşdırmaq və rahatlıq təmin etmək üçün texnoloji cihazlardan faydalanırlar.***




Müasir texnologiyaların inkişafı özünün faydası ilə yanaşı, yeni təhlükələr də gətirir. Bu təhlükələrdən biri də sosial şəbəkələrdir ki, gənclər və yeniyetmələr tərəfindən düzgün və səmərəli istifadə olunmadıqda böyük fəsadlara yol aça bilər. Bəs, ümumiyyətlə, sosial şəbəkə nədir? Mövzu ilə bağlı Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin Məlumat hesablama və informasiya texnologiyaları şöbəsinin aparıcı məsləhətçisi İnci Şirzadova ilə həmsöhbət olduq.

Müsahibim əvvəlcə bildirdi ki, yeni telekommunikasiya texnologiyaları və internet, xüsusilə cəmiyyət həyatının istənilən sahəsinə fəal şəkildə daxil edilir. Müasir insan kütləvi informasiya vasitələri olmadan təsəvvür edilə bilməz. İnternet yalnız kütləvi informasiya vasitələri deyil, həm də ünsiyyət üçün bir mühitdir. İnternet mühitində ən populyar sahələrdən biri sosial şəbəkələrdir. Sosial şəbəkə dedikdə ictimai obyektlər və onların aralarındakı münasibətlər olan çoxsaylı keçidlərdən ibarət sosial quruluş nəzərdə tutulur. Bu termin elmi leksikona 1954-cü ildə ingilis sosioloqu Barns tərəfindən daxil edilib. İlk sosial şəbəkənin yaranması ötən əsrin 90-cı illərinin ortalarına təsadüf edir.

Sosial şəbəkənin üstün cəhətləri barədə oxucularımıza məlumat verən həmsöhbətim dedi ki, sosial şəbəkələr vasitəsilə ölkədən uzaqdakı yaxınlarımızla ünsiyyət qurur, bilmədiklərimizi öyrənir, maraqlı məlumatlar əldə edirik. Bu istifadəçiyə, bəlkə də, uzun müddət görmədiyi dostunu, tanışını tapıb onunla əlaqə saxlamaqda, danışmaqda çox kömək edir, virtual olaraq bir araya toplaşıb, fikirlərimizi bölüşə bilirik. Sosial şəbəkələr vasitəsilə məlumatlar əldə edə, müəyyən biliklərə yiyələnə bilirik, cürbəcür intellektual yarışlarla məntiqimizi, riyazi biliklərimizi, xarici dillərdə danışıq səviyyəmizi artırmış oluruq.

Etiraf etmək lazımdır ki, bu gün hansısa xəbəri, məlumatı informasiya agentlikləri və xəbər saytlarından əvvəl məhz sosial şəbəkələrdən əldə edirik. Hər hansı materialı hazırladıqda belə, sosial medianın köməyindən faydalanırıq. Sosial şəbəkələr artıq medianın, agentlik və saytların funksiyasını yerinə yetirir desək, yanılmarıq. Təbii ki, söhbət operativ və düzgün informasiyadan gedir. Düzdür, bəzən sosial şəbəkədə yayılan hansısa xəbər, məlumat sonradan öz təsdiqini tapmır, doğru olmur, əksinə, tamamilə qərəzli məqsəd daşıyır. Amma buna baxmayaraq, əksəriyyətimiz ilk olaraq kompüter arxasına keçdikdə hansısa agentlik və saytın internet səhifəsini deyil, məhz sosial şəbəkəni izləyirik.

İnci Şirzadova onu da vurğuladı ki, təhsil, təlim-tədris və digər maarifləndirmə işlərində canlı yayım vasitəsilə müxtəlif iclaslar, müzakirələr keçiririk, onlayn rejimdə təşkil edilən müxtəlif forumlarda iştirak edirik. Xüsusilə də son illər ərzində bütün dünyada COVID-19 pandemiyası dövründə onlayn rejimdə keçilən dərslər gənclərin təhsil almalarına böyük köməklik göstərdi. Muxtar respublikada müasir informasiya texnologiyalarının tətbiqinə göstərilən dövlət qayğısının, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin fəaliyyətinin düzgün qurulmasının və buna yaradılan hərtərəfli şəraitin nəticəsidir ki, doğma diyarımız nəinki pandemiya dövründə bir sıra mühüm onlayn tədbirlərdə uğurla təmsil edilib, eyni zamanda onlayn beynəlxalq simpozium və konfransların, digər elmi tədbirlərin təşkilatçısı olub. Bunlarla yanaşı, marketinq və ya biznes işi qurmaq, dil öyrənmək, müxtəlif sorğular təşkil etmək, elmi yeniliklərlə bağlı məlumat əldə etmək və digər məqsədlər üçün sosial şəbəkələr olduqca əhəmiyyətli rola malikdir.

Müasir dövrdə, demək olar ki, hər kəsin sosial şəbəkədən yararlandığını xatırladan müsahibim qeyd etdi ki, təəssüf ki, son dövrlərdə sosial şəbəkələrdən düşünülməmiş şəkildə istifadənin mənfi nəticələri ilə də qarşılaşırıq. Bunun üçün gənclərimizin bu sahədə maarifləndirilməsi ən prioritet məsələlərdəndir. Sosial şəbəkələrdən düzgün istifadə edilə bunun, xüsusən gənclərin inkişafındakı böyük rolunu görə bilərik. İnsanların sosial şəbəkəni necə, hansı zaman kəsiyində və hansı məqsədlə istifadə etməsindən çox şey asılıdır. Hər bir insan şüurlu şəkildə bilməlidir ki, sosial şəbəkədən nə istəyir. Dünya alimləri belə hesab edirlər ki, sosial şəbəkələr bəşəriyyəti məhv edən yeni silah növüdür. Bu tip sosial şəbəkələr insanları müasir həyatdan uzaqlaşdırır, onları asılı vəziyyətə salır. Ən başlıcası isə insanlarda mənəvi dəyərləri məhv edir. Eyni zamanda da virtual dünya real dünyadan uzaqlaşmağa zəmin yaradır, real ünsiyyəti azaldır və insanlarda diqqət dağınıqlığı yaradır.

İnci Şirzadova onu da bildirdi ki, bu, danılmaz faktdır ki, sosial şəbəkələrə maraq günü-gündən artır. Bu şəbəkələrdən həm gənc, həm də yaşlı nəslin nümayəndələri istifadə edirlər. Həyatımızın ayrılmaz bir hissəsinə çevrilən sosial şəbəkələr vasitəsilə bir çox məsələlər həll olunur. Kimisi adi bir paylaşım ilə məşğuldur, kimisi problemlərini həll edir və sair.

Gənclər, ümumiyyətlə, bu cür sosial şəbəkələrdən istifadə edən hər bir şəxs, özünə məhdudiyyət qoysa, daha doğru olar. Saatlarla internet qarşısında olmaqdansa, vaxtımızı bizə maraqlı olan başqa şeylərə – mütaliəyə və yaxud elm öyrənməyə sərf edə bilərik. Əslində, sosial şəbəkələrlə bağlı problem dünyanın bir çox ölkəsində var.

Həmsöhbətim vurğuladı ki, hazırda inkişafa daha çox yönümlü olan muxtar respublika gəncləri də artıq sosial şəbəkələrin üstünlüklərindən faydalanmaqdadır. Artıq minlərlə fəal insan, xüsusilə də təşəbbüskar gənclər sosial şəbəkələrdə informasiya yayıcısına çevrilib, etik çərçivədə düşüncələrini yaymaq kimi ictimai rəy platforması yaradıb. Hər kəs öz potensialına uyğun şəkildə internet resurslarından istifadə edir və ondan yararlanır. Sürətli internet təminatı bütün naxçıvanlıların sosial şəbəkələrdən sərbəst istifadəsinə imkan verib. Yaradılan şərait isə həmin şəbəkələrdən aktiv istifadə edən naxçıvanlıların doğma diyarımız haqqında ictimai rəyin formalaşması, əhalinin məlumatlandırılması istiqamətində uğurlu fəaliyyəti ilə nəticələnməkdədir. Qürurvericidir ki, sosial şəbəkələrdə yüzlərlə gənc qədim yurd yerimizin təbliğinə xidmət edən səhifələr yaradıblar. Onlar yayılan hər hansı dezinformasiya xarakterli məlumatlara düzgün və yerində, həmçinin sərrast cavab verməyi vətəndaşlıq borcu hesab edirlər. Əksəriyyəti gənclər olan bu sosial şəbəkə istifadəçilərinin 19-20 fevral tarixlərdə Ağbulaq İstirahət Mərkəzində düşərgəsinin təşkil edilməsi, burada "Sosial şəbəkələrdə Naxçıvanın təbliği" və "Sosial şəbəkələrdə turizmin təbliği" mövzularında təlimlər keçilməsi, heç şübhəsiz ki, gənclərimizin bu sahədə daha da fəallaşmasına əhəmiyyətli dərəcədə təsir göstərəcək. Sosial media istifadəçisi olaraq vaxtımızı daha önəmli, daha vacib məsələlərin təbliğinə, o cümlədən muxtar respublikanın inkişafı istiqamətində keçirilən tədbirlərə yönəltsək, daha çox uğur əldə etmiş olarıq.

*Bütün bunlar bir daha bu qənaətə gəlməyə əsas verir ki, sosial şəbəkədən düzgün və sağlam məqsədlər üçün istifadə etməli, əldə etdiyimiz bilik və məlumatlardan faydalı məqsədlər üçün yararlanmalı, aldığımız məlumatı obyektivlik, millilik və dövlətçilik baxımından analiz və təhlil etməyi bacarmalıyıq. Xüsusilə də gənclər bu sahədə düzgün maarifləndirilməlidir. Bütövlükdə, sosial şəbəkələri XXI əsrin hadisəsi adlandırmaq olar. Hər bir gənc muxtar respublikamızın tanınması üçün sosial şəbəkələrdə müsbət mənada aktiv olmalıdır. Gənclərimizə bunu tövsiyə edirik.*

**Asimə CƏFƏROVA**

## Könüllülərimiz V Beynəlxalq Etnoidman Forumunda

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Bakı şəhərində V Beynəlxalq Etnoidman Forumu keçirilib. "Ənənəvi idman növlərinin dirçəldilməsi" mövzusu ilə təşkil olunan forumun 1-ci günündə sessiyalarda ənənəvi idman növlərinin gələcəyi müzakirə edilib. Forumun 2-ci günündə müxtəlif coğrafiyalardan olan iştirakçılar ənənəvi idman növlərinin yol xəritəsini müəyyən etmək və ortaq mədəni irsi qorumaq üçün toplaşıblar. Azərbaycan, İtaliya, Qazaxıstan, Tatarıstan və Türkiyədən məruzəçilərin qatıldığı paneldə inteqrasiya olunmuş kommunikasiya anlayışı ətrafında strategiya, hədəf auditoriya təcrübələri və ənənəvi idman növlərinin tətbiqi nümunələri qiymətləndirilib.

Forumda Dünya Etnoidman Konfederasiyasının prezidenti Bilal Ərdoğanın moderatorluğu ilə Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov, Türkiyə Respublikasının gənclər və idman naziri Məhmət Muharrəm Kasapoğlu və digər ölkələrin gənclər və idman nazirləri iştirak ediblər.




Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin könüllüləri Salatın Məmmədova və Gülü Məmmədova V Beynəlxalq Etnoidman Forumunun açılış və bağlanış mərasimlərində qonaqların qarşılanması, forumun sessiyaları haqqında məlumatlandırılması və mükafatlandırılması prosesinin iştirakçıları olublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Xüsusi qayğıya ehtiyacı olan uşaqlara xeyriyyə tamaşası göstərilib



Martın 10-da Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında 10 mart – Milli Teatr Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə şəhid və qazi ailələrinin övladları, sağlamlıq imkanları məhdud uşaqlar, həmçinin valideyn himayəsindən məhrum və aztəminatlı ailələrin uşaqları üçün "Keçinin qisası" tamaşası nümayiş etdirilmişdir.

Quruluşçu rejissoru Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nadir Hüseynov olan tamaşada xeyirlə şərin mübarizəsindən bəhs edilir.

Quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Rafael Qədimov, bəstəkarı Əli Məmmədov, rejissor assistenti Ulduz Süleymanova olan tamaşada aktyorlar Ləman Vəliyeva, Ulduz Süleymanova,



Sənan Abutalıbov, Arzu Səfərov, İlham Babayev və digərlərinin təqdim etdiyi personajlar uşaqlar tərəfindən maraqla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyası

### *2022-2023-cü tədris ili üçün təhsilin bakalavriat səviyyəsinə kursant (tələbə) qəbulu elan edir*

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına 2022-2023-cü tədris ili üçün qəbula namizədlər

*- boyu 170 sm-dan az olmayan;*

*- tam orta təhsilli və ya tam orta məktəbin buraxılış sinfində oxuyan;*

*- 15 sentyabr 2022-ci ilədək 17 yaşı tamam olan;*

*- yaxud müddətli həqiqi hərbi xidmətini başa vuraraq ehtiyata buraxılmış və 15 sentyabr 2022-ci ilədək 23 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir.*

Akademiyaya qəbul olmaq arzusunda olanlar Fövqəladə Hallar Nazirliyinin Xüsusi həkim ekspertiza komissiyasından və Fövqəladə Hallar Nazirliyi tərəfindən qəbul edilmiş qaydalara müvafiq olaraq fiziki hazırlıq və seçmə komissiyalarında sınaqdan keçməlidirlər.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı test imtahanlarında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.

Qəbul imtahanı test üsulu ilə birinci mərhələdə buraxılış imtahanları fənləri üzrə, ikinci mərhələdə isə I ixtisas qrupunun fənləri üzrə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir.

Test imtahanlarının keçirilməsi qaydaları ilə Dövlət İmtahan Mərkəzinin internet saytında və kütləvi informasiya vasitələrində verilən elanlarda tanış olmaq olar.

Akademiyaya qəbul olunan şəxslər təhsil müddətində yemək, geyim forması və yataqxana ilə təmin olunur, təqaüd alırlar.

Təhsil müddəti dörd ildir. Təhsil dövlət sifarişi əsasında ödənişsiz əsaslarla əyani şöbədə həyata keçirilir. Tədris Azərbaycan dilində aparılır.

Akademiyada Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi və Yanğın təhlükəsizliyi mühəndisliyi ixtisasları üzrə bakalavr ali peşə-ixtisas dərəcəsi, hərbi və ya xüsusi rütbələr verilməklə Fövqəladə Hallar Nazirliyinin qurumlarında müvafiq vəzifələrə təyin edilirlər.

Akademiyaya qəbul olmaq istəyənlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*– tərcümeyi-hal (abituriyentin şəxsən özü tərəfindən yazılmış);*

*– şəxsiyyət vəsiqəsinin və doğum haqqında şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surəti;*

*– hərbi biletin və ya ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqəsinin əsli və notarial qaydada təsdiq olunmuş surəti;*

*– tam orta məktəbdən, işlədiyi təqdirdə iş yerindən və ya hərbi hissədən xasiyyətnamə;*

*– tam orta təhsil haqqında sənədin əsli və notarial qaydada təsdiq olunmuş surəti, yaxud tam orta məktəbin buraxılış sinfində oxuması haqqında müəyyən olunmuş formada arayış;*

*– yaşayış yerindən arayış (daimi qeydiyyat yerində yaşamadığı halda);*

*– 4 ədəd 6x4 santimetr ölçüdə fotoşəkil ağ fonda, 2 ədəd 9x12 santimetr ölçüdə fotoşəkil qırmızı fonda (tünd rəngli pencəkdə);*

Dövlət İmtahan Mərkəzinin rəsmi saytında təsdiqlənmiş abituriyentin elektron ərizəsi.

Xüsusi həkim ekspertiza komissiyasına təqdim olunması üçün yaşayış yeri üzrə ruhi-əsəb, narkoloji, dəri-zöhrəvi, vərəm dispanserlərindən arayışlar, qeydiyyat yeri üzrə poliklinikaya son 5 il ərzində müraciətləri haqqında arayış, qanın İİÇV (HİV) antitellərinə görə müayinəsi, burunətrafı ciblərin rentgenoqrafiyası, sidiyin ümumi analizi.

Qeyd: Bütün arayışların qeydiyyat tarixi, nömrəsi, imzası və möhürü olmalıdır.

*Sənədlər 2022-ci il mart ayının 1-dən aprel ayının 15-dək (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 10[00]-dan 17[00]-dək Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi) qəbul ediləcək. Əlaqə telefonu: (036) 544-48-50*

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Şahbuz rayon Kükü kənd sakini Hüseynova Nübar Nəsib qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Güntac Şahməmmədli**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 226**